Elm və təhsil naziri Emin Əmrullayev 17 mart tarixində Şabran şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 10 mart (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 – 2 və 146 – 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.